http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. № 19 (1637) 15 noyabr 2016 - cı il Qiyməti 50 qəpik

# Prezident İlham Əliyev Beyləqanda Bayraq Muzeyinin açılışında iştirak edib

Noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beyləqanda Bayraq Muzeyinin açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Bayraq Muzeyinin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, muzeyin inşası cari il ərzində aparılıb. Rayonun daxili imkanları hesabına həyata keçirilən layihə çərçivəsində ümumi sahəsi 420 kvadratmetr olan bina tikilib. Zəruri infrastrukturla təchiz olunan muzeydə 129 eksponatın sərgilənməsi üçün hər cür şərait yaradılıb. Bayraq Muzeyində tariximizin müxtəlif dövrlərinə aid eksponatlar, Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin bayraqları, gerbləri, xəritələr, konstitusiyalar, orden və medallar, bir sözlə, müxtəlif dövlət rəmzləri qorunur.

Azərbaycan Xalq Cümhuriyyətinə aid əsginaslar, Azərbaycan Respublikasının poçt markaları, müxtəlif güc nazirliklərinin zabitlərinin hərbi geyim formaları da burada sərgilənir. Muzeydə müstəqillik dövrümüzün tarixi hadisələrinə də geniş yer verilib.

Muzeydə nümayiş etdirilən eksponatlar həm Beyləqan gənclərində, həm də rayona gələn qonaqlarda Azərbaycanın şanlı tarixi haqqında təsəvvür yaratmağa geniş imkanlar açır.



## BU SAYIMIZDA




BÖYÜK ELMİ ŞURADA 2

Stavropol Dövlət Tibb Universiteti ilə əməkdaşlığa dair saziş imzalanıb 3



II Azərbaycan Elm Festivalının addımları alqışlanır 3

ATU-da "Narkomaniyaya "YOX" deyək" adlı seminar 5





Tələbələrin və Gənc Həkimlərin III Beynəlxalq Tibb Konqresi 4

Respublikada ilk dəfə olaraq ana bətnində dölə qan köçürüldü 3

Trans-telefon EKQ sisteminin əməli fəaliyyəti ilk dəfə Tədris Terapevtik Klinikada həyata keçirilib 3

Görkəmli alim, sevimli müəllim 6

Elmin İnkişafı Fondunun dəstəyilə və immuno-hissokimyəvi reaktivlər alınacaq 7

ATU tələbələri Bayraq Yürüşünə qatılıblar 5





ATU-nun Tələbə Gənclər Təşkilatının sədri Fəxri Fərmanla təltif edilib 8

Təbib



# BÖYÜK ELMİ ŞURADA

**Böyük Elmi Şura növbəti iclasını keçirib. Yığıncağı açan Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli gündəliyə keçməzdən öncə II mamalıq ginekologiya kafedrasının professoru Naziyə Şəmsəddinskayanı və xarici dillər kafedrasının müdiri, professor Zemfira Məmmədovanı yubileyləri münasibətilə təbrik etdi, onlara işlərində uğurlar dilədi. Sonra rektor "ATU-da 2015/2016- cı tədris ilində keçirilən peşə təcrübəsinin yekunları və tibb universiteti tələbələrinin təcrübi hazırlığının yaxşılaşdırılması" barədə məruzə etmək üçün sözü istehsalat təcrübəsinin dekanı, dosent Şəfa Əliyevə verdi.**



Məruzəçi 2015/2016-cı tədris ilində müvafiq fakültə və kurs tələbələrinin qış və yay imtahan sessiyalarından sonrakı peşə təcrübəsi haqqında ətraflı məlumat verərək qeyd etdi ki, tələbələri peşə təcrübəsinə göndərərkən Azərbaycan Respublikasının Səhiyyə nazirinin 10 iyun 2014-cü il tarixli 51 saylı, həmçinin müvafiq kurslar üzrə Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin əmrlərinə istinad edilmişdir. Səhiyyə nazirinin



2014-2017-ci illər üçün nəzərdə tutulan yeni əmrinə əsasən 11 elmi tədqiqat institutu, Bakı şəhərində fəaliyyət göstərən 10 gigiyena-epidemioloji xidmət müəssisəsi, 9 əczaçılıq müəssisəsi, Bakı şəhərindəki 67 müalicə-profilaktika müəssisəsi, Respublika ərazisində fəaliyyət göstərən 60 mərkəzi rayon xəstəxanası, Naxçıvan MR və respublika ərazisindəki şəhər səhiyyə şöbələrinin tabeçiliyində olan bütün tibb müəssisələri, ATU-nun Elmi Tədqiqat Mərkəzi, kliniki-biokimyəvi laboratoriyası, Tədris Terapevtik, Tədris Cərrahiyyə, Onkoloji və Stomatoloji klinikaları, həmçinin bir sıra özəl tibb müəssisələri təcrübə bazaları kimi tələbələrin istifadəsinə verilmişdir. Bu tədris ilində də Bərdə, Cəlilabad, Füzuli, Qazax, Qəbələ, Quba, Lənkəran, Siyəzən, Şamaxı, Şirvan, Zaqatala müalicə diaqnostika mərkəzlərindən, Neftçilər xəstəxanasından da təcrübə bazası kimi istifadə olunmuşdur.

Səhiyyə nazirinin yeni əmrinə əsasən Analitik Ekspertiza Mərkəzi, «Azerimed MMC», «Dokta MMC», «Maymed MMC» apteklər şəbəkəsindən əczaçılıq fakültəsinin tələbələri üçün təcrübə bazası kimi istifadə olunmuşdur.

Ş.Əliyev istehsalat təcrübəsinin keçirilməsinə tədris hissəsinin rəhbərliyi ilə fakültələrin və peşə təcrübəsinin dekanlıqlarının, eləcə də hərbi tibb fakültəsi də daxil olmaqla 24 aidiyyəti olan kafedranın məsuliyyət daşıdığını söylədi: "2015-2016-cı tədris ilində 76 müəllim yay və qış peşə təcrübəsinin keçirilməsinə rəhbərlik etmişdir (3 professor, 15 dosent, 1 baş müəllim, 37 assistent). Hərbi Tibb fakültəsində 20 nəfər zabit heyəti dinləyicilərin ixtisas və qoşun təcrübəsinə rəhbərlik etmişlər.

Sözünə davam edən natiq bildirdi ki, keçən tədris illərində olduğu kimi, bu tədris ilində də müalicə-profilaktika fakültələrinin III, IV, V kurs, tibbi-profilaktika fakültəsinin III və IV kurs tələbələri üçün sorğu anketləri paylanmış və onlar arzuladıqları rayonları bildirdikdən sonra əmr tərtib edilmişdir. Hər iki müalicə-profilaktika fakültəsinin III kurs tələbələrindən 149 nəfər, IV kurs tələbələrindən isə 135 nəfər respublikamızın rayonlarında, o cümlədən xarici tələbələrdən 66 nəfər III kurs, 29 nəfər isə IV kurs tələbəsi təcrübəni öz vətənlərində keçirmək üçün dekanlığa müraciət etmişlər.

İyunun 29-da ATU-nun rektoru, professor G.Gəraybəylinin sədrliyi ilə keçirilən geniş müşavirədə baza rəhbərləri və təcrübəyə başçılıq edəcək müəllimlərə universitet rəhbərliyi tərəfindən peşə təcrübəsinin lazımi səviyyədə yerinə yetirilməsi üçün müvafiq tövsiyələr verildiyini vurğuladı: "Universitet rəhbərliyi tərəfindən həmişə olduğu kimi peşə təcrübəsinin lazımi səviyyədə keçirilməsi üçün müvafiq tapışıqlar müəllim və baza rəhbərliklərinin diqqətinə çatdırılmışdır. Hazırlıq mərhələsində təcrübəyə başçılıq





edəcək, həmçinin rayonlara ezam olunacaq müəllimlər barədə məlumatlar ümumi və kadrlar şöbələrinə, mühasibatlığa bildirilmişdir. Təcrübə bazalarının rəhbərlər arasında bölüşdürülməsi zamanı kafedraların verdikləri təqdimatlar əmrin tərtibatında nəzərə alınmışdır. Bütün kurslar üzrə əmrlər təcrübə başlamazdan bir ay əvvəl hazırlanaraq rektor tərəfindən imzalandıqdan sonra müvafiq məktublar bazalara təcrübə başlamazdan bir həftə əvvəl çatdırılmışdır.

Peşə təcrübəsinin yekunları təcrübə rəhbərlərinin iştirakı ilə bütün fakültələlərin elmi şuralarında geniş müzakirə olunmuş və kafi qiymətləndirilmişdir. Bunların arasında tələbələrin xarici ölkələrdə, xüsusən Avropa və Türkiyə Cümhuriyyətində istehsalat təcrübəsi keçmələri praktikasının daha da genişləndirilməsi, təcrübə başlayana qədər rəhbərlərlə seminar müşavirələrinin keçirilməsi kimi məsələlər qarşımıza vəzifə kimi qoyulmuşdur. Qeyd etdiyim kimi, bu tədris ilində də xaricdə təcrübə keçmək üçün göndərilən tələbələrin sayı artmışdır. Bu tədris ilində Türkiyədə 130, Almaniyada 74, Polşada 3, Rumıniyada 2, İsveçrədə 2 tələbə təcrübə keçmişdir. Ümumiyyətlə, 2007-2008-ci tədris ilindən bu tədris ilinə qədər qardaş Türkiyədə 1458 nəfər, Avropa ölkələrində isə 232 nəfər (onlardan 168 nəfəri Almaniyada) təcrübə keçiblər."

"Peşə təcrübəsinin gedişində, ona nəzarət edilməsində öz işimizdən razı qala bilmərik, heç şübhəsiz təcrübənin təşkili, keçirilməsi məsələlərində müəyyən çatışmazlıqlar var"- deyən Şəfa Əliyev bu çatışmazlıqları aradan qaldırmaq üçün təkcə dekanlığın deyil, təcrübənin keçirilməsinə rəhbərliyə tövsiyə olunmuş əməkdaşların da öz işlərində müəyyən dönüş yaratmasının vacibliyini önə çəkərək təcrübənin keyfiyyətini yüksəltmək üçün elmi şura üzvlərindən əməli təkliflər gözlədiyini söylədi.

Məruzə ətrafında çıxış edən kafedra müdirləri Amaliya Əyyubova, İbadulla Ağayev, Elxan Kərimov, Elmira Əliyeva, xarici tələbələrin işləri üzrə dekan İsmayıl Əfəndiyev, tədris hissə müdiri Nəsimi Qasımov və həmçinin klinikaların direktorları hesabatı qənaətbəxş qiymətləndirərək tələbələrin peşə təcrübəsi ilə bağlı öz fikirlərini söylədilər. Natiqlər bu sahədə əldə olunan nailiyyətlərlə yanaşı, problemlərin də olduğunu dilə gətirdilər və bu çatışmazlıqların aradan qaldırılması istiqamətində bir sıra təkliflərini irəli sürdülər.

Müzakirələrə yekun vuran rektor nəzəri biliklərin təcrübədə möhkəmləndirilməsinin əhəmiyyətinə diqqət yönəldərək bu sahədə mövcud olan problemlərin həlli yollarından danışdı: "Tədrisin, bütövlükdə mütəxəssis hazırlığının əsas vacib sahələrindən biri də təcrübədir. Tələbə il ərzində ixtisas fənləri ilə yanaşı, nəzəri biliklərini də təkmilləşdirməli və praktiki vərdişlərə yiyələnməlidir. Hər bir tələbə hansı yolla olursa-olsun istədiyi yerə, istədiyi ölkəyə getsin və bizə lazım olan sənədləri gətirib gəlsin. Mən hesab edirəm ki, təcrübə dekanlığının işi bir qədər də genişlənməlidir. Türkiyəyə və digər ölkələrə göndərilən tələbələrin təcrübələrini harada, necə, proqrama uyğun keçib-keçməməsi barədə tam bilgiyə malik deyilik. Lakin ordan gələn tələbə təcrübə zamanı orada nələr görüb, bunu analiz etməlidir. Orada nələr var və yaxud bizdə nə yoxdur. Bax bu məsələləri də nəzərə almaq lazımdır. Deyildi ki, yay aylarında klinikalirda xəstə az olur. Bu düzgün hal deyil. Onda insan da gərək fəsildən fəsilə xəstələnsin. Sual olunur, bəs yayda xəstələnən insan hara getsin? Ona görə də klinika rəhbərləri əvvəlcədən işçilərinin məzuniyyət qrafikini elə tutsunlar ki, həmin müddət bütün şöbələr işləsin. Tələbə ora gedəndə nəsə görsün. Bəzən müəllimlər öz istədiyi xüsusi zonalara və yaxud doğulduğu rayona getmək istəyir və başqa yerə getməkdən boyun qaçırır. Mən hesab edirəm ki, eyini adam bir yerə hər il getməməlidir. Əgər o adam yaşadığı yerə gedirsə, inanmıram ki, yetərincə tələbəylə məşğul olsun. Bu adamların özlərinə nəzarət olunmalıdır. Bilməliyik ki, baza rəhbərləri, istehsalata göndərdiyimiz müəllimlər, eləcə də oradakı işçilərimiz bu işdə birbaşa məsuliyyət daşıyırlar."

Müxtəlif məsələlərə toxunan universitetin rəhbəri peşə təcrübəsində verilən məqbulların mahiyyətinin nədən ibarət olduğu ilə də maraqlandı və münasibətini bildirdi. Bundan başqa kafedralarda professor- müəllim heyətinin ştat cədivəlinin həddən artıq olduğunu vurğuladı və gələn ildən etibarən dərs yükünün ümumi saatla deyil, mühazirə saatlarına görə müəyyən edilməsini zəruri saydı. Kafedra müdirlərinin dərs yükünə ciddi fikir verməsini diqqətə çatdıran rektor kafedra saytlarında hələ də köhnə məlumatların qaldığını bildirdi və tez bir zamanda saytlarının yenilənməsini də kaferdra müdirlərindən tələb etdi.

Sonra universitet kollektivi tərəfindən namizədliyi irəli sürülən anatomiya kafedrasının professoru Rafiq Əsgərov universitetin ilk məsləhətçi-professru seçildi.

Eyni zamanda universitet əməkdaşlarının elmi- pedaqoji fəaliyyətinin dəyərləndirilməsi üçün beynəlxalq təcrübəyə əsaslanan kriteriyaların hazırlanması məqsədilə yaradılan monitorinq komissiyasının sədri, professor Çingiz Rəhimov komissiyanın tərkibinə daxil olan nümayəndələrin adlarını açıqladı. O, gələcəkdə bu komissiyanın görəcəyi işlərdən bəhs edərək hər bir universitet əməkdaşının subyektiv amillərə söykənən müxtəlif kriteriyalarının, o cümlədən, apardığı elmi-pedaqoji və elmi-tədqiqat işlərinin vəziyyəti ilə yanaşı, onun şəxsi keyfiyyəti, kollektiv arasında reytinqi, maddi və mənəvi dəyərlərinin ballar üzrə obyektiv qiymətləndirilməsi qaydaları haqqında şura üzvlərinə geniş məlumat verdi.

Komissiyanın beş nəfərdən ibarət tərkibini təsdiqləyən Böyük Elmi Şura müsabiqə məsələlərini həll etməklə öz işini yekunlaşdırdı.

**Mənsur ƏLƏKBƏRLİ**

**Noyabrın 2-də Bakıda VII Azərbaycan-Rusiya regionlararası forumu işini başa çatdırıb. Forum çərçivəsində Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında əməkdaşlığa dair 12 sənəd imzalanıb. İqtisadiyyat, kənd təsərrüfatı, sosial, maliyyə, turizm və digər sahələri əhatə edən sənədlər sırasında tibb sahəsinə aid razılaşmalar da əldə olunub.**

# Stavropol Dövlət Tibb Universiteti ilə əməkdaşlığa dair saziş imzalanıb



VII Azərbaycan-Rusiya regionlararası forum çərçivəsində iki ölkə arasında imzalanan sazişlərdən biri də Azərbaycan Tibb Universiteti tərəfindən yerinə yetirilib. Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Azərbaycan Tibb Universiteti ilə Stavropol Dövlət Tibb Universiteti arasında əməkdaşlığa dair çərçivə sazişi Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli və Stavropol Dövlət Tibb Universitetinin rektoru Vladimir Koşel tərəfindən imzalanıb.

Qeyd edək ki, Azərbaycan-Rusiya regionlararası forumu artıq 7-ci dəfədir təşkil olunur. Bu dəfə Rusiya forumda 250 nəfərlik nümayəndə heyəti ilə təmsil olunub. Stavropol Dövlət Tibb Universitetinin rektoru V.Koşelin rəhbərlik etdiyi nümayəndə heyətinə ali məktəbin beynəlxalq münasibətlər və marketinq şöbəsinin təmsilçiləri daxildirlər.

# II Azərbaycan Elm Festivalının addımları alqışlanır

**Oktyabrın 31-də Bakıda AMEA-nın təşəbbüsü ilə təşkil olunan II Azərbaycan Elm Festivalına start verilib. Festival çərçivəsində Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Cərrahiyyə Klinikasında keçirilən tədbir noyabrın 1-də baş tutub.**



Festival öz işinə Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.

Festivalın açılışında ATU-nun tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev giriş nitqi ilə çıxış edərək ölkəmizdə elm və təhsilin inkişafına göstərilən xüsusi qayğıdan, gənclərimizin həyata keçirdiyi uğurlu elmi tədqiqatlardan, gənc alimlər üçün yaradılan şəraitdən danışıb. Professor S.Əliyev qeyd edib ki, bu festival artıq ikinci dəfədir ki, ATU-da keçirilir. Bunun üçün o, AMEA-nın prezdidenti akademik Akif Əlizadəyə təşəkkürünü bildirərək bu festivalın keçən dəfəkindən fərqli olduğunu və 6 gün davam edəcəyini vurğulayıb.



Prorektor Sabir Əliyevin sözlərinə görə, gənc alimlərin inkişafı, azərbaycanlı elm adamlarının işlərinin dünyaya tanıdılması baxımından Elm Festivalının müstəsna əhəmiyyəti var. Buna görə də, bu bilik nümayişində AMEA-nın bütün elmi müəssisə və təşkilatları ölkəmizin bütün ali və orta təhsil müəssisələri ilə yanaşı, ATU da fəal iştirak edir.

Daha sonra festival çərçivəsində ATU təmsilçiləri ilə yanaşı, digər ali müəssisələrin nümayəndələrinin müxtəlif elmi mövzulara dair məhazirələri dinlənilib.

Azərbaycan Tibb Universitetinin profesor-müəllim heyəti də Elm Festivalında geniş nümayəndə heyəti ilə təmsil olunub. Tədbirdə universitet əməkdaşları V.Hüseynovun "Hemotologiya və onkologiyada adaptiv (qazanılmış) T-hüceyrəli immunoterapiya", Z.Qasımovanın "Diş-çənə anomaliyalarının müalicəsi və onların ağırlaşmalarının profilaktikası təcrübəsində aşağı tezlikli ultrasəsin tətbiqinin məqsədəuyğunluğu", S.Hüseynovanın "Uşaq serebral iflicinin perinatal risk faktorları", T.Süleymanovanın "Bioloji fəal maddələrin alınması və tibbdə istifadəsi üçün tətbiqi" mövzusunda maraqlı çıxışlar olub.

Toplantıda həmçinin Azərbaycan Diplomatik Akademiyasının nümayəndəsi S.Rüstəmov "Fraktallar nəzəriyyəsi və onun tətbiqi" mövzusunda, AMEA Radiasiya Problemləri İnstitutunun dosenti A.Nəsibova "Biotibbi tədqiqatlarda müasir fiziki-kimyəvi metodların tətbiqi" mövzusunda, AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun biologiya üzrə fəlsəfə doktoru N.Sultanova "Bitki virusları-təhlükəli infeksion xəstəliklərin mənbəyi kimi", Fövqəladə Hallar Nazirliyinin təmsilçisi Ə.Quliyev "İonlaşdırıcı şüalanma mənbələri və radiasiya təhlükəsizliyi" mövzusunda təqdimatlarla çıxış ediblər.

Qeyd edək ki, Azərbaycanda Elm Festivalı 2014-cü ildən keçirilir. I Elm Festivalının 15 mindən artıq iştirakçısı olub. Builki festival UNESCO, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Elmin İnkişafı Fondu, ABŞ-ın Azərbaycandakı səfirliyi və Moskva Dövlət Universitetinin təşkilati dəstəyi ilə reallaşdırılıb.

# Respublikada ilk dəfə olaraq ana bətnində dölə qan köçürüldü

Bu ilkə imza atan ATU-nun Tədris Cərrahiyyə Klinikasının ginekologiya şöbəsinin müdiri Turab Canbaxışov bildirib ki, pasiyent bu günlərdə klinikaya müraciət edib.



Əvvəl başqa bir klinikada hamiləliyi izlənilən pasientin ultrasəs müayinəsi zamanı dölün qarnına su yığıldığı aşkar olunub. Bununla bərabər dəri və dərialtı toxumalara su yığıldığı üçün ödəm başlayıb. Döldə belə vəziyyət, adətən, qan uyğunsuzluğu, rezus uyğunsuzluğu və ya viral problem əsasında yaranır. Bundan başqa analizlər nəticəsində virus və virus antitellərinə rast gəlindiyi də deyilib.

T.Canbaxışov qeyd edib ki, eyni simptomları onlar da müşahidə ediblər: "Biz müayinə etdik və virus antitellərinə qarşı da analiz götürdük. Ancaq analizlərin nəticəsi mənfi çıxdı. Tək problem qan uyğunsuzluğu idi. Qan qrupunun uyğunsuzluğunu ana bətnində ikən aşkar etmək çətin olur. Buna baxmayaraq, analizlərin cavabı müsbət çıxdı. Dopler müayinəsi zamanı uşağa ciddi anemiya diaqnozu qoyuldu. Ciddi anemiya olduğu üçün müalicənin yeganə üsulu ana bətnində dölə qan köçürülməsidir. Dölün çəkisinə, həftəsinə və hemoqlobin dəyərinə görə ümumi miqdar hesablanır və qan köçürülür. Biz bu prosesi uğurla həyata keçirdik. "

T.Canbaxışov əlavə olaraq onu da bildirib ki, dölün bu həftəsinə görə hemoqlobin dəyəri normada 14-15 g/dl olmalıdır. Bizim müayinə etdiyimiz döldə isə bu dəyər qanköçürmədən əvvəl 7.5 g/dl olub: " Biz dölə xüsusi qaydada yeni hazırlanmış eritrosit kütləsindən 96 ml qan köçürdük. Bu məhlulu verdikdən sonra dölün qan dövranındakı hemoqlobinin dəyəri 11.7 g/dl oldu. Hal-hazırda dölün vəziyyəti yaxşıdır. Bir həftə döldə olan ödemin çəkilməsini gözləyəcəyik. Əgər lazım gələrsə, bu proseduru hamiləliyin sonuna qədər 2-4 həftə aralıqla daha 2 dəfə edəcəyik."

# Trans-telefon EKQ sisteminin əməli fəaliyyəti ilk dəfə Tədris Terapevtik Klinikada həyata keçirilib

Azərbaycanda ilk dəfə tətbiq olunan trans-telefon EKQ sisteminin əməli fəaliyyəti Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında həyata keçirilib. Bu haqda Tədris Terapevtik Klinikanın kardioloqu Fərid Əliyev məlumat verib.



Fərid Əliyev sistemin əsas xüsusiyyətləri barədə danışıb və bildirib ki, bu, normal EKQ sistemi olmaqla, onun xəstənin üzərində daşına bilinən funksiyası vardır: "Sistem mobil telefon vasitəsilə idarə olunur. Xəstənin harada olmasından asılı olmayaraq GSM xətti üzərindən işləyir. Həkim istədiyi zaman xəstəylə bağlantı quraraq (əsasən internetin və telefonların işlədiyi yerdə) xəstədə olan şikayətləri izləyə bilir. Xəstənin hər hansı şikayəti olduğu halda bir düyməyə basmaqla kardioqrama qeydlərini aparır. Bu sistem əsasən nadir şikayətləri olan (3-4 ayda bir) və riskli xəstələr üçün istifadə olunur".

Cihazın əsas özəlliklərini vurğulayan həkim, bu cihazın mobil şəbəkənin olmadığı yerlərdə xəstəylə bağlı şikayətləri qeyd etdiyini və mobil şəbəkəyə keçildiyi andan etibarən lazım olan məlumatları birbaşa mərkəzə ötürüldüyünü də bildirib.

Fərid Əliyev onu da qeyd edib ki, bu sistem sayəsində xəstədəki ürək ritminin 24 saatlıq nəzarəti uzun müddətli (aylıq) aparılır.

**ATU-nun mətbuat xidməti**

**Azərbaycan Tibb Universitetində Tələbələrin və Gənc Həkimlərin III Beynəlxalq Tibb Konqresi öz işinə noyabrın 1-də Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başladı. Tədbirin aparıcıları Səmra Bağırlı və Oktay Tapdıqlı konqresin açılış günündə müxtəlif ölkələrdən təşrif buyurmuş nümayəndələri, ATU-nun professor-müəllim heyətini və tələbələrini salamlamaqdan məmnunluq duyduqlarını söylədilər. Təbrik üçün ilk söz ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərova verildi. Konqres iştirakçılarını universitetin rektoru, professor Gəray Gəraybəylinin və rəhbər heyətin adından salamlayan prorektor qeyd etdi ki, hər il ənənəvi olaraq Azərbaycan Tibb Universitetində Tələbələrin və Gənc Həkimlərin Beynəlxalq Tibb Konqresi keçirilir: "I Beynəlxalq Konqres 2014-cü ilin mayında ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuşdu. Həmin konqresə 20-dən artıq xarici universitetin təmsilçiləri qatılmışdı. 2015-ci ilin noyabrında keçirilən II Beynəlxalq Konqresdə isə 30-dan artıq universitetin nümayəndələri iştirak etmişdi. Bu il 450-dən artıq nümayəndə rəsmi qeydiyyatdan keçib ki, bunlardan da 104 nəfəri ayrı-ayrı xarici universitetlərin professor-müəllim və tələbə heyətidir".**

# Tələbələrin və Gənc Həkimlərin III Beynəlxalq Tibb Konqresi keçirildi





Prorektor ali məktəb qarşısında duran ən böyük vəzifələrdən birinin, bəlkə də birincisinin istedadlı və ixtisaslaşmış kadrların hazırlanması olduğunu, bu baxımdan aparılan işlərdə Tələbə Elmi Cəmiyyətinin xüsusi rolunu diqqətə çatdırdı: "Ölkəmiz möhtərəm prezidentimiz İlham Əliyevin rəhbərliyi altında bir çox beynəlxalq tədbirlərə, forumlara ev sahibliyi edir. Beynəlxalq səviyyəli tədbirlərin ardıcıl olaraq keçirilməsinin nəticəsidir ki, artıq xarici tələbələrin ölkəmizə marağı durmadan artır. Bugünkü konqresə yaxın və uzaq xaricdən xeyli sayda nümayəndənin qatılması dediklərimizin əyani sübutudur".

Təbabətin aktual problemlərinə həsr olunmuş elmi müzakirələrin aparılacağı konqresi açıq elan edən prorektor onun işində iştirak edən hər kəsə uğurlar arzuladı.

Daha sonra Türkiyə İstanbul Universitetinin tibb fakültəsinin professoru Levent Aftan çıxış edərək, tədbir iştirakçılarını səmimiyyətlə salamladı və "Bu konqresdə sizlərlə bərabər olmağın xoşbəxtliyini yaşayıram" – dedi: "Bu konqresin beynəlxalq səviyyədə təşkilini tibb elminə verilən dəyər kimi qəbul edirəm. İnanıram ki, bu gün burada iştirak edən gənclər arasından tanınmış elm adamları çıxacaq".

Professor Levent Aftan çalışdığı universitetdə Azərbaycan kökənli 750 tələbənin olduğunu və bunlardan 150 nəfərinin tibb fakültələrində təhsil aldığını, həmçinin İstanbul Universitetində 2 tibb fakültəsinin -İstanbul və Cərrahpaşa tibb fakültələrinin fəaliyyət göstərdiyini dedi. Bildirdi ki, hər iki fakültədə 110 nəfər azərbaycanlı tibb doktoru müxtəlif ixtisaslar üzrə tibb təhsili alırlar.

Tula Tibb Universitetindən professor Tatyana Subbotina çıxışında dünya ölkələrinin tibb təhsili üzrə təcrübə mübadilələrinin mühüm rolunu qeyd etdi. Bakıya səfərindən məmnunluğunu bildirən rusiyalı alim gəncləri Tula Tibb Universitetində dərc olunan jurnalda elmi məqalələrlə çıxış etməyə dəvət etdi.

Çıxışlar zamanı ölkələrimiz arasında elmi əlaqələrin qurulmasında, gənc həkimlərin elmi tədqiqatlara cəlb olunmasında və onlarda diskussiya mədəniyyətinin formalaşmasında belə tədbirlərin böyük əhəmiyyət daşıdığı vurğulandı.

Milli Onkoloji Mərkəzdə aparılan geniş spektrli əməliyyatlar barədə Niyazi Əsgərov məlumat verdi. Almaniyanın Araşdırmalar Mərkəzindən Mehdi Əhmədpur, Türkiyədən Tuğba Uysal prezentasiya ilə çıxış etdilər.

Noyabrın 2-də yüksək səviyyədə keçən beynəlxalq tədbirin təntənəli bağlanışı oldu. TEC-in elmi rəhbəri, professor Amaliya Əyyubova konqresin gedişatını diqqətdə saxladığına görə ilk növbədə universitetin rektoru, professor Gəray Gəraybəyliyə təşəkkürünü bildirdi. Plenar iclaslarda tibbin bütün sahələrini əhatə edən çox maraqlı məruzələrin dinlənildiyini söyləyən Amaliya xanım gənc tədqiqatçıların alimliyə gedən yolda ilk addımlarını müsbət qiymətləndirdi. O, çıxışında universitetin müəllim-professor heyətinin böyük əksəriyyətinin Tələbə Elmi Cəmiyyətində yetişdiyini xatırladaraq tələbələrə bu istiqamətdə sərbəstlik verilməsinin zəruriliyini önə çəkdi. Eyni zamanda, uzun illərdir ki, onunla bərabər çalışan TEC-in sədri Müşfiq Həsənovun fəaliyyətini yüksək qiymətləndirərək istər hazırlıq mərhələsində, istərsə də konqresin gedişində onun xüsusi fəallıq göstərdiyini, təşkilatçılıq səriştəsi ilə seçildiyini vurğuladı.

Təşkilat komitəsi adından tədqiqatçı tələbələri, onların elmi rəhbərlərini, valideynlərini təbrik edən Amaliya xanım Əyyubova bütün konqres iştirakçılarına, qonaqlara bu mötəbər tədbirə qatıldıqları üçün bir daha hörmət və ehtiramını ifadə etdi.






Tədbirin açılışının və bağlanışının bədii hissə ilə müşayiət olunması iştirakçılarda xoş ovqat yaratdı. Prezident təqaüdçüsü Çinarə Əzimovanın ifasında Fikrət Əmirovun "Azərbaycan elləri" əsəri, tarda İsmayıl Zülfüqarov, kamançada Hikmət Abdullayevin müşayiəti ilə Respublika müsabiqələr laureatı Nigar Cəlilovanın ifasında Azərbaycan xalq mahnısı "Sarı gəlin" böyük maraqla qarşılandı. Beynəlxalq müsabiqələr laureatı Nihad Orucovun ifasında M.Maqomayevin "Azərbaycan" əsəri, Bülbül adına orta ixtisas musiqi məktəbinin şagirdlərinin ifasında "Qarabağ şikəstəsi" təkcə milli musiqimizin əzəmətinin nümayişi deyildi. Həm də nəzərləri Qarabağa yönəldərək bu tarixi torpaqların Azərbaycana məxsusluğu barədə musiqi dilində bir çağırış idi.

II müalicə-profilaktika fakültəsinin VI kurs tələbəsi O.Tapdıqlının qiraətində şair Ramiz Qusarçaylının "Azərbaycan bayrağı" şeiri və ATU-nun Əminə Dilbazi adına qızlardan ibarət "Çinar" rəqs ansamblının çıxışları da tədbirə xüsusi rəng qatdı.






İki gün davam edən Tələbələrin və Gənc Həkimlərin III Beynəlxalq Konqresi öz işini plenar və bölmə iclaslarında davam etdirdi. Sonda qaliblər diplom və sertifikatlarla təltif olundular.

**Arif MƏMMƏDLİ**

**Fotolar Cənnətalı Çingizindir**

# Tədris Terapevtik Klinikaya yeni direktor təyin olunub

**Azərbaycan Tibb Universitetinin (ATU) Tədris Terapevtik Klinikasına noyabrın 4-də yeni direktor təyin olunub. Səhiyyə naziri Oqtay Şirəliyevin sərəncamı ilə klinikanın direktoru vəzifəsinə professor Hüseyn Qabulov təyinat alıb.**

Öz növbəsində, klinikanın direktoru H.Qabulov da göstərilən etimada görə səhiyyə naziri Oqtay Şirəliyevə və rektor Gəray Gəraybəyliyə öz minnətdarlığını bildirib.

Qeyd edək ki, Klinikanın di-





ATU-nun rektoru, professor Gəray Gəraybəyli yeni təyinat almış Hüseyn Qabulovu kollektivə təqdim edib. Rektor G.Gəraybəyli onu təbrik edərək, bundan sonra klinikada aparılan işin daha da təkmilləşdiriləcəyinə əmin olduğunu deyib.

rektoru, dosent Könül Xəlilova səhiyyə naziri Oqtay Şirəliyevin digər sərəncamı ilə Respublika Diaqnostika Mərkəzinə baş həkim vəzifəsinə təyin olunub. Rektor Gəray Gəraybəyli bu təyinatla bağlı Könül Xəlilovanı təbrik edib, ona yeni işində uğurlar arzulayıb.

# Tədris Cərrahiyyə Klinikasında da kadr dəyişikliyi olub



Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında kadr dəyişikliyi baş verib. Klinikaya yeni baş həkim təyin olunub.

ATU-nun Tədris Cərrahiyyə Klinikasının direktoru Surxay Hadıyev yeni baş həkimi kollektivə təqdim edib. Qeyd edək ki, yeni baş həkim II cərrahi xəstəliklər kafedrasının professoru Rauf Maqsud oğlu Ağayevdir.

# ATU tələbələri Bayraq Yürüşünə qatılıblar

9 noyabr – Dövlət Bayrağı Günü ilə əlaqədar keçirilən yürüşdə Təhsil Nazirliyinin, nazirliyin tabeliyindəki qurumların əməkdaşları, Milli Məclisin deputatları, ali təhsil müəssisələrinin rektorları, müəllim, tələbə və şagirdlər iştirak ediblər.




Həmişə olduğu kimi, Azərbaycan Tibb Universiteti də bu möhtəşəm tədbirin iştirakçılarından olub. ATU-nun bütün fakültələrindən olan tələbələr Bayraq Yürüşünə qatılıblar. 100-ə yaxın tələbə ilə yanaşı, Azərbaycan Tibb Universitetinin prorektorları, dekan və digər rəhbər şəxsləri Baryraq naminə yürüşdə iştirak ediblər.

Bayraq Yürüşü "Azneft" meydanından başlanıb və Dövlət Bayrağı Meydanında başa çatıb.



Yürüşün keçirilməsinin əsas məqsədi milli atributlarımızın təbliği, gənclərə vətənpərvərlik hisslərinin və milli-mənəvi dəyərlərin aşılanması olub.

Yürüş Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanıb.

Tələbə və şagirdlər Vətənə, bayrağımıza həsr olunmuş şeirlər söyləyib, mahnı və rəqslər ifa ediblər.

Yürüş zamanı təhsil naziri Mikayıl Cabbarov ölkənin təhsil sahəsində keçirilən islahatlardan danışıb, bu sahəyə dövlət qayğısının ildən-ilə artdığını vurğulayıb. Nazir Dövlət Bayrağı Gününün hər il ölkəmizdə geniş şəkildə qeyd olunduğunu bildirib, bu tədbirlərin əhəmiyyətini xatırladıb.

# ATU-da "Narkomaniyaya "YOX" deyək" adlı seminar

**Noyabrın 4-də Azərbaycan Tibb Universitetində (ATU) Daxili İşlər Nazirliyinin (DİN) təşəbbüsü ilə "Narkomaniyaya yox deyək!" devizi adı ilə seminar keçirilib.**

Seminarı universitetin tədris işləri üzrə prorektoru, professor Sabir Əliyev açıb. S.Əliyev tədbir təşkilatçıları və iştirakçılarını salamlayandan sonra hələ ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə gəncliyin formalaşması, sağlam həyat tərzinin yaxşılaşdırılması məsələsinə həmişə diqqət və qayğının göstərildiyini qeyd



edib. Gəncliklə bağlı aparılan siyasətin bu gün uğurla davam etdirildiyini bildirib. ATU-nun ölkənin digər təhsil ocaqlarından fərqləndiyini və hər il 400-dən artıq tələbənin 600-dən yuxarı bal toplayaraq qəbul olunduğunu diqqətə çəkən prorektor, narkomaniya əleyinə təşkil olunmuş belə tədbirlərin ATU-da təşkil olunmasının əhəmiyyətinə də toxunub: "Bu cür kampaniyaların ali təhsil müəssisələrində keçirilməsi olduqca müsbət haldır. Ölkəmizdə gənclərin formalaşması və onların zərərli vərdişlərin təsiri altına düşməməsi üçün dövlət tərəfindən lazımi addımlar atılır. İdman komplekslərinin regionlarda fəaliyyəti, nüfuzlu beynəlxalq idman yarışlarının ölkəmizdə keçirilməsi, gənclərin



idmana olan həvəsi və onların yarışlarda qazandıqları uğurlar təqdirəlayiqdir. Bu, gənclərin düzgün formalaşmasına zəmin yaradır. Ailələrin dağılmasına və cəmiyyətdə ciddi fəsadlara səbəb olan narkomaniyaya qarşı keçirilən tədbirlərin miqyasını daha da genişləndirmək, cəmiyyəti maarifləndirmək lazımdır" - deyən prorektor, tədbir təşkilatçılarına təşəkkürünü bildirib.

Sonra söz Narkotiklərlə Mübarizə İdarəsinin rəisi Zaur Əliyevə verilib. Rəis hazırda dünyada 250 milyondan çox insanın narkotik vasitələrdən asılı olduğunu və bundan əziyyət çəkdiyini qeyd edib: "Bunun 47 milyonu Latın Amerikasının, 1.2 milyonu Meksikanın, 26 milyonu isə MDB və Asiya ölkələrinin payına düşüb."

Narkomaniya bəlasının ölkəmizdən də yan keçmədiyini bildirən Z.Əliyev paytaxt üzrə 11 min 700 nəfərin Respublika Narkoloji Mərkəzində qeydiyyatda olduğunu və onların sayının ilbəil artdığını təəssüfləndirci hal kimi qeyd edib. İşğal olunmuş ərazilərimizdə - Dağlıq Qarabağ ərazisində onlarla narkoloji məntəqələr və laboratoriyaların fəaliyyət göstərdiyini, narkotik vasitələrin oradan Rusiyaya və digər ölkələrə göndərildiyini iştirakçıların diqqətinə çatdırıb. Əldə olunan gəlirin müharibələrə və insan tələfatına yönləndirildiyini təəssüf hissi ilə qeyd edib.

Sonra Suraxanı rayon 33-cü Polis Bölməsinin rəisi Tuncay Abbasov çıxış edib. O, Amerika, Avropa və digər inkişaf etmiş ölkələrdə narkomaniyanın vəziyyəti ilə bağlı geniş məlumat verib. Amerika, Almaniya, Yaponiya və digər inkişaf etmiş ölkələrdə narkomaniya əleyhinə mübarizə üsullarından nümunələr söyləyib.

Tədbir iştirakçıları üçün videoroliklər və süjetlər nümayiş olunub. Gəncliyimizin narkomaniyaya aludə olmalarının səbəbləri, düşdükləri mühitin təsiri və s. ilə bağlı geniş məlumat verilib. Natiq tələbələrə xitab edərək, onları bu bəlanın girdabına düşməmək üçün ayıq olmağa çağırıb. Çaxışlar zamanı ölkəmizdə də dövlət tərəfindən bu istiqamətdə aparılan mübarizədən və onun nəticələrindən söz açılıb. Tədbir zamanı bir sıra təkliflər səsləndirilib və tələbələrin suallarına ətraflı cavab verilib. Bu tipli tədbirlərin digər təhsil ocaqlarında da davam etdiriləcəyi vurğulanıb.

**Qabil ABDULLAYEV**

# Görkəmli alim, sevimli müəllim

**◆ Bu günlərdə Azərbaycan Tibb Universiteti Mikrobiologiya və immunologiya kafedrasının müdiri, t.e.d., professor, ə.e.x., AMEA-nın müxbir üzvü Zakir Ömər oğlu Qarayevin anadan olmasının 75, elmi-pedaqoji fəaliyyətinin 50 illiyi tamam olur.**



Z.Qarayev 27 noyabr 1941-ci ildə Qərbi Azərbaycanın (indiki Ermənistan Respublikası) Dilican mahalının Göyərçin kəndində qulluqçu ailəsində anadan olmuşdur. 1962-ci ildə Azərbaycan Tibb İnstitutunun tibbi-profilaktika fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Elə həmin ildən əmək fəaliyyətinə başlayaraq 1962-1964-cü illərdə Qərbi Azərbaycanın Göyçə mahalında həkim kimi çalışmışdır. 1964-1967-ci illərdə "Mikrobiologiya" ixtisası üzrə ATİ-nin əyani aspirantı olmuş, 1968-ci ildə "Polien antibiotiklərin immunogenezə təsiri" mövzusunda tibb üzrə fəlsəfə doktorluğu müdafiə etmişdir. ATİ-nin METL-in direktoru (1968-1974), daha sonra Sankt-Peterburq Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun ETL-da böyük elmi işçi (1974-1975), direktor (1975-1982), SSRİ Səhiyyə Nazirliyinin və Ümumdünya Səhiyyə Təşkilatının Mikologiya və Dərin Mikozlar Elmi Mərkəzinin direktoru (1982-1993) vəzifələrində çalışmışdır. 1974-cü ildə Sankt-Peterburq Elmi Tədqiqat Antibiotiklər İnstitutunda "Antibiotiklərin orqanizmin immun reaktivliyinə təsir mexanizminin tədqiqi" mövzusunda doktorluq dissetasiyasını müdafiə etmişdir.

1982-1993-cü illərdə SSRİ TEA-nın Elmi Şurasının, ekologiya və mikrobiologiya üzrə problem komissiyalarının, SSRİ Səhiyyə və Tibbi Sənaye Nazirlikləri sahələrarası ekspert şurasının üzvü olmuşdur. Uzun illər Fransa, Almaniya və Yaponiya Tibbi Mikoloqlar Elmi Cəmiyyətlərinin Fəxri üzvü, Beynəlxalq "Mikologiya və Fitopatologiya" və Almaniyada nəşr olunan "Health" jurnalının Redaksiya Şurasının üzvü, eləcə də 1980-1994-cü illərdə Ümümdünya Səhiyyə Təşkilatının eksperti olmuşdur.

Müstəqillik qazandıqdan sonra vətənə qayıdan Zakir Qarayev Azərbaycan Respublikası Elmi-Tədqiqat Mikrobiologiya, Virusologiya və İmmunologiya İnstitutunun direktoru (1993-1994), İstanbul Universiteti Tibb Fakültəsinin Mikrobiologiya və İmmunologiya kafedrasında professor (2001-2004) vəzifələrində çalışmışdır. 2004-cü ildə Azərbaycan Tibb Universitetinin Mikrobiologiya və İmmunologiya kafedrasının müdiri vəzifəsinə təyin edilmiş və indiyədək bu vəzifədə çalışır.

Z.Ö.Qarayevin elmi-tədqiqat işlərinin əsas istiqamətləri orqanizmin immun sisteminin, immun reaktivliyinin öyrənilməsinə, bir sıra kimyəvi, bioloji, fiziki amillərin təsiri nəticəsində baş verən dəyişikliklərin, immun çatışmazlıqların xüsusiyyətlərinin və onların mexanizmlərinin araşdırılmasına, immun çatışmazlıqlarla əlaqəli infeksion-mikotik, bakterial, virus mənşəli xəstəliklərin ilkin diaqnostikası, müalicə və profilaktika prinsiplərinin təkmilləşdirilməsinə yönəlmişdir. Bu tədqiqatlar əsasən tibbi praktikada geniş istifadə olunan sitostatiklərin, antibiotiklərin, hormonal preparatların insanlarda immun çatışmazlıq virusunun və radiasiyanın təsiri ilə əlaqəli baş verən patoloji proseslərlə əlaqəli axtarışlardan ibarət olmuşdur.

1993-cü ildə vətənə qayıtdıqdan sonra onun elmi fəaliyyəti o vaxtlar ölkəmizdə narahatlıq doğuran bir sira tibbi-sosial problemlərlə əlaqədar olmuşdur. Bu baxımdan cəbhə bölgələrində qəlpə və güllə yaralanmaları, ağır yanıqların fasadlaşmaları ilə əlaqəli anaerob və nozokomial infeksiyaların etiopatogenezinin öyrənilməsi, müalicə və profilaktika tədbirlərin hazırlanması mühüm əhəmiyyət kəsb edir. Keçən əsrin 90-cı illərində əsgərlər və əhalinin digər qrupları arasında bəzi infeksion xəstəliklərə qarşı müvafiq profilaktik tədbirlərin hazırlanması və aparılması da önəmli olmuşdur.

Z.Qarayev bu illər ərzində tibb elmində öz dəsti-xətti olan bir alim kimi formalaşmışdır. O, 300-dən cox elmi əsərin, o cümlədən 4 monoqrafiyanın, 5 patentin, 2 dərsliyin və 20-yə qədər dərs vəsaitinin müəllifidir. Dünyanın müxtəlif elmi jurnallarında nəşr olunmuş 63 elmi əsərinin "xülasə"si ABŞ-ın Milli Səhiyyə İnstitutunun Milli Tibb Kitabxanasının rəsmi saytı olan www.pubmed.qov internet portalında yerləşdirilmişdir. Onun rəhbərliyi ilə 70-dən artıq fəlsəfə doktoru, 20 elmlər doktoru hazırlanmışdır. Onların bir çoxu ölkəmizdə və xarici ölkələrin universitetlərində, elmi-tədqiqat institutlarında məsul vəzifələrdə çalışırlar.

Z.Qarayev dəfələrlə vətən tibbi mikrobiologiya, mikologiya və immunologiya elmini xarici ölkələrdə (ABŞ, Kanada, Fransa, Avstriya, Almaniya, Polşa, İtaliya, Macarıstan, Yaponiya, Türkiyə, Misir, Avstraliya və s.) müxtəlif elmi konqreslərdə, simpozium və konfranslarda müvəffəqiyyətlə təmsil etmiş, Yaponiyada, Misirdə, Polşada və digər ölkələrdə çoxsaylı mühazirələr oxumuşdur. Onun təşəbbüsü və rəhbərliyi ilə Sankt-Peterburq şəhərində mikologiya və immunologiyanın aktual problemləri üzrə 3 Beynəlxalq və 4 Milli simpozium, 2009-cu ildə isə Bakıda III Avrasiya Klinik Mikrobiologiya, İmmunologiya və İnfeksion Xəstəliklər Beynəlxalq konqresi təşkil edilmişdir.

Ömrünün müdriklik çağlarını yaşayan Zakir müəllim bu gün də çalışır, öz biliklərini gələcək həkimlərə - tələbələrə, rezidentlərə və doktorantlara yorulmadan öyrədir. Onun azərbaycan, rus və ingilis dillərində oxuduğu mühazirələr tələbələr tərəfindən böyük maraqla qarşılanır. Hazırda rəhbərlik etdiyi kafedranın əməkdaşlarının böyük bir qismi məhz Zakir müəllimin yetirmələridir.

Mikrobiologiya və İmmunologiya kafedrasının əməkdaşları Zakir müəllimi yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, ona möhkəm can sağlığı, fədakar və yorulmaz fəaliyyətində uğurlar arzu edirlər.

**Mikrobiologiya və İmmunologiya kafedrasının əməkdaşları**

# ARZUSU HƏKİM OLMAQ İDİ

**◆ Orta məktəbin son sinfində oxuyanda Rəhilə xanım Müzəffərovanın da ürəyindən həkim olmaq keçirdi. Amma taleyinə Xarici Dillər İnstitutunun (indiki Dillər Universiteti) tələbəsi olmaq düşdü. İnstitutun ingilis-azərbaycan dilləri fakültəsini bitirib, doğulduğu Qəbələ rayonunun Seyidqışlaq kəndinə təyinat aldı. Həmin kənd məktəbində müəllim işlədikdən bir müddət sonra ailə qurub Bakıya köçdü.**



1991-ci ildən Azərbaycan Tibb Universitetinin təsisçiliyi ilə nəşr olunan "Təbib" qəzetində əmək fəaliyyətini davam etdirdi. O, qəzetdə fəaliyyətə başladığı dövrdə Azərbaycan xalqı tarix boyu arzusunda olduğu dövlət müstəqilliyini təzəcə bərpa etmişdi. Həkimlik arzusuna çatmasa da, tale onu Tibb Universitetinə gətirib çıxardı.

Dörd ildən artıq redaksiyada çalışandan sonra Universitetin rəhbərliyi ona indiki Hərbi Səfərbərlik şöbəsində işləməyi məsləhət bildi. Elə o vaxtdan da bu şöbədə mühəndis vəzifəsində çalışır.

R.Müzəffərova bu universitetdə dərs deyən müəllimlərin, professorların mühazirələrini dinləməsə də, tibb elminə misilsiz töhfələr verən dünya şöhrətli akademiklərdən, professorlardan-uzun illər ATU-nun rektoru olmuş akademik, SSRİ Dövlət Mükafatı Laureatı Əhliman Əmiraslanov, Moskvada Bloxin adına Rusiya Onkoloji Mərkəzinin direktoru Mixail Davıdov, həmyerlimiz, Rusiya Tibb Elmləri Akademiyasının üzvü, Rusiya Dövlət Mükafatı laureatı Məmmədbağır Əliyevdən səhhəti ilə bağlı məsləhətlər aldı.

Bu günlərdə Rəhilə xanımın 60 yaşı tamam olub. Bu illərin 25 ili Azərbaycan Tibb Universiteti ilə bağlıdır. Qüsürsuz işlədiyinə görə və 60 illik yubileyi ilə əlaqədar onu universitetin rektorluğu mükafatlandırıb.

Hərbi Səfərbərlik şöbəsinin kollektivi də bu təbrikə qoşulur, Rəhilə xanıma möhkəm cansağlığı, şəxsi həyatında və işində uğurlar arzulayır!

**Hərbi Səfərbərlik şöbəsinin kollektivi**

# Universitetimizin gənc alimi Türkiyədə ezamiyyətdə olub

**◆ Azərbaycan Tibb Universitetinin Tibbi biologiya və genetika kafedrasının assistenti, b.ü.f.d Aytəkin Həsənova bu ilin yayında Türkiyədə tibbi genetika üzrə keçdiyi bir neçə aylıq təlimin davamı olaraq yenidən oktyabr ayında 10 günlük ezamiyyətdə olub. O, İzmir şəhərinin Ege və Manisa şəhərinin Celal Bayar Universitetlərinin tibb fakültələrinin tibbi genetika kafedralarında (tıbbi genetik anabilim dalı) öz bilik və bacarığını artırıb.**

Səfər zamanı A.Həsənova tibb fakültəsinin dekanı Prof.Dr.Süleyman Sami İlkerin göstərişi ilə Prof.Dr.Sırrı Çam ilə birlikdə çalışıb, molekulyar genetika və sitogenetika laboratoriyalarında praktiki və nəzəri biliklər əldə edib.



Bu müddət ərzində əməkdaşımız molekulyar və sitogenetik laboratoriyada genetik diaqnozun, müalicənin yeni və ən son üsullarının tətbiq edilməsi nəticəsində analizlərin aparılması ilə yaxından tanış olmuş, klassik metodla Smarttype Karyotyper proqramı vasitəsilə xromosomlarla bağlı (say və quruluşu) pozğunluğun səbəb olduğu xəstələrə və ailələrinə prenatal (doğum öncəsi) ve postnatal (doğum sonrası) diaqnoz qoymaq üçün periferik qan, amnion mayesi, abort materialı və dölün xorion hüceyrələri üzərində aparılan xromosom analizləri haqqında qazandığı biliklərin təcrübədə necə tətbiq olunduğunu əyani şəkildə izləmişdir. O, həmçinin Türkiyənin bu bölgələrində xromosom abberasiyalarının prenatal diaqnostikasının tədbiqi səviyyəsi ilə maraqlanmış, klassik sitogenetik metodun mərhələlərini öyrənmiş, tədqiqat materiallarının genetik müayinəsində iştirak etmiş, tədqiqat müddətində qəbul olunmuş materiallar əsasında xromosom xəstəliklərinin rastgəlmə tezliyi ilə maraqlanmışdır.

A.Həsənovanın sözlərinə görə, bu təcrübə yalnız ixtisas biliklərini dərinləşdirmək üçün deyil, həmçinin tibbi genetika sahəsində yeni araşdırmalar aparmaq və elmi tədqiqat işlərini inkişaf etdirmək üçün əvəzolunmaz, faydalı bir təcrübə olmuşdur.

Səfər çərçivəsində təlim iştirakçısı həmçinin İzmir şəhərində yerləşən Ege Universitetinin Tibb fakültəsinin Molekulyar tibb laboratoriyasının müdiri Prof. Dr.Afiq Berdeli, Celal Bayar Universitetinin tibb fakültəsinin tibbi biologiya kafedrasının müdiri Prof.Dr. Mehmet Korkmaz və Dos. Dr. Nuray Altintaş ilə görüşlər zamanı onların istifadə etdikləri dərsliklər və dərs proqramları ilə tanış olmuş, Türkiyənin bu universitetləri ilə Azərbaycan Tibb universiteti arasında birgə əməkdaşlığın həyata keçirilməsi barədə fikirlər müzakirə olunmuşdur.

Ezamiyyətin sonunda təlimi uğurla başa vurduğuna görə A.Həsənovaya Universitetlərin dekanlıqları tərəfindən sertifikatlar təqdim edilmişdir.

**"Təbib„**

**Azərbaycanın qocaman ali məktəblərindən olan Tibb Universiteti təkcə yüksək təhsil səviyyəsi ilə tanınmır. ATU-da tibb mütəxəssisləri uzun illərdir həm də təbabətin müxtəlif sahələrinə dair dərin elmi tədqiqat və araşdırmalarla məşğul olurlar.**

# Elmin İnkişafı Fondunun dəstəyilə və immuno-hissokimyəvi reaktivlər alınacaq



ATU-nun Patoloji anatomiya kafedrası tərəfindən aparılacaq növbəti elmi araşdırma da bunun sübutudur. Kafedra əməkdaşları Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun 2015-ci il üçün Kompleks Elmi-Tədqiqat Proqramları Layihələri Müsabiqəsində (EİF-KETPL-2015-1(25)) iştirak ediblər.

Patoloji anatomiya kafedrasının əməkdaşları tərəfindən irəli sürülən "Azərbaycan Tibb Universitetində aparılan eksperimental-klinik yönümlü elmi-tədqiqat işləri zamanı patoloji dəyişikliklərin molekulyar-genetik dəyərləndirilməsinin təmini" layihəsi də müsabiqədə qalib çıxan layihələrdən olmuşdur.

Qrant layihəsinin rəhbəri, ATU-nun patoloji anatomiya kafedrasının müdiri, professor Ədalət Həsənovun sözlərinə görə layihənin əsas məqsədi Azərbaycan Tibb Universitetinin müxtəlif elmi-tədqiqat laboratoriyaları, kafedra və klinikalarında aparılan eksperimental-klinik yönümlü elmi-tədqiqat işləri zamanı hüceyrə, toxuma və orqanlarda rast gəlinən patoloji dəyişikliklərin molekulyar-genetik səviyyədə öyrənilməsi və dəyərləndirilməsini təmin etmək olmuşdur.

Professor Ə.Həsənov qeyd edir ki, qrant layihəsi çərçivəsində ATU-nun patoloji anatomiya kafedrasının nəzdində olan Patohistoloji laboratoriya üçün 8 adda avadanlıq və aparaturanın. 43 adda reagent – histokimyəvi və immunhistokimyəvi reaktivlər komplektinin alınması planlaşdırılır.

Professor Ə.Həsənov qeyd edir ki, müasir dövrdə tibb sahəsində prioritet hesab olunan orqanköçürmə – transplantologiya (sümük iliyi, böyrək transplantasiyası, qaraciyər transplantasiyası və s.), kök hüceyrələr, tibbi-genetika, mikrobiologiya və digər sahələrdə aparılan elmi-tədqiqat işlərinin nəticələrinin daha dürüst və dünya elmində əldə olunan nəticələrə uyğun olması üçün molekulyar-genetik üsullardan immun-histokimya və FISH (fluorescence in situ hybridization) üsulunun tətbiqi çox vacib və tələb olunandır. Nəzərdə tutulan bu müasir morfoloji müayinələrin həyata keçirilməsi Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahiyyə klinikasında orqan (böyrək, qaraciyər və s.) transplantasiyalarının aparılması, kök hüceyrələrin öyrənilməsi və tətbiqi üzrə müvafiq şöbələrin yaradılmasından və fəaliyyətə başlamasından sonra daha vacib hesab edilir. Belə ki, orqan və toxuma transplantasiyaları zamanı əməliyyatdan əvvəl və sonra donordan və resipiyentdən götürülən toxuma nümunələrinin əksər hallarda histokimyəvi və molekulyar-genetik müayinələrinin aparılması istər elmi-tədqiqat işləri kimi, istərsə də klinik-morfoloji tədqiqatlar nöqteyi-nəzərdən zəruri hesab edilir.

"Eyni zamanda, FISH üsulundan klinik tədqiqatlarda da çox geniş istifadə edilir. Məlumdur ki, infeksion xəstəliklər zamanı xəstənin toxumalarından və ya mayelərindən alınmış bakteriyalar aqar mühitində əkilir və törədici təyin edilir. Lakin, bir çox hətta çox yaxşı məlum olan bakteriyalar da laborator şəraitlərdə yaxşı inkişaf etmirlər. Bu zaman pasiyentlərdən alınmış çox kiçik bir toxuma nümunəsində FISH üsulunun köməkliyi ilə törədicini dəqiq təyin etmək mümkün olur. Qeyd olunan üsulların istifadəsi ilə müxtəlif istiqamətli elmi-tədqiqatlar zamanı üzv və toxumalardan götürülmüş cərrahi və diaqnostik biopsiya, həmçinin autopsiya materiallarında müxtəlif struktur səviyyələrdə morfoloji dəyişiklikləri aşkar etmək, patoloji proseslərin morfogenezini, forma və xarakterini, onların qarşılıqlı dinamikasını öyrənmək, neoplastik proseslərdə şiş toxumasının dəqiq histogenezi təyin etmək qarşıya qoyulan məqsədə çatmaq üçün adekvat məsələlər hesab olunmalıdır. Bütün bunların da nəticəsi klinikada, xüsusilə də onkoloji xəstəliklər zamanı və orqan transplantasiyalarında həyati diaqnostika, müayinə, müalicə və profilaktika işlərinin daha da təkmilləşdirilməsinə və yaxşılaşdırılmasına, molekulyar səviyyədə proqnostik faktorların müəyyənləşdirilməsi ilə xəstəliklərin maksimum dərəcədə proqnozlaşdırılmasına səbəb olacaq".

Ümumiyyətlə, layihənin icrası sayəsində ATU-nun Patomorfoloji laboratoriyasında müasir morfoloji müayinə üsullarından (işıq mikroskopiyası, histokimyəvi, immunohistokimyəvi, FISH və s.) kompleks şəkildə istifadə ediləcəkdir. Bunların köməyilə nəzəri-eksperimental və tətbiqi-klinik elmi-tədiqiqatlar zamanı hüceyrə, toxuma və orqanlarda müxtəlif səviyyələrdə baş verən dəyişikliklərin morfoloji xüsusiyyətlərinin öyrənilməsi nəzərdə tutulur. Həmçinin, böyrək və qaraciyər transplantasiyaları zamanı reperfuzion sindromun patogenetik və morfogenetik əsasları yeni müstəvilərdə və müasir tələblər səviyyəsində tədqiq olunacaqdır. Kəskin və xroniki leykozların müxtəlif formaları zamanı sümük iliyi transplantasiyalarından sonra monitorinq müayinələr aparılacaqdır.

Professor vurğulayır ki, immunhistokimya və FISH üsullarının istifadəsi, həmçinin bu üsulların tədbiqi zamanı əldə olunan nəticələr Azərbaycan Tibb Universitetinin müvafiq kafedralarında aparılan tədris prosesində istifadə ediləcək və kafedraların elmi-tədris bazasının daha da möhkəmlənməsinə xidmət edəcək.

Qeyd edək ki, layihədə patoloji anatomiya kafedrasının assistenti Camal Musayev, kafedranın baş müəllimi Müşfiq Orucov, baş laborantlar Arzu İbişova və Anar İsayev iştirak ediblər. Layihə üzrə immunohistokimya və FİSH üsulları ATU-nun nəzəri kafedralarında, elmi-tədqiat laboratoriyalarında və klinikalarında həyata keçirilən çoxşaxəli elmi-tədqiqat işlərinin morfoloji hissələrinin həyata keçirilməsində, o cümlədən patoloji anatomiya kafedrasında tələbə və rezidentlərin tədris prosesində hərtərəfli istifadə ediləcək.

**Günel ASLANOVA**

# Quliyeva Xurşud Cəmil qızı

**Azərbaycan tibb elminə ağır itki üz vermişdir. Professor Xurşud xanım Quliyeva noyabrın 3-də dünyasını dəyişmişdir.**



Quliyeva Xurşud Cəmil qızı 1918-ci ildə Vladiqafqaz şəhərində - Murtazova stansiyasında (Şimali-Qafqaz Dəmir yolları) dünyaya göz açmışdır. Orta təhsilini Bakı şəhərində almış, 1936-cı ildə Azərbaycan Tibb İnstitutuna daxil olmuş və 1942-ci ildə oranı bitirmişdir. Eyni zamanda 1932-ci ildən 1942-ci ilə qədər konservatoriyanın nəzdində musiqi texnikumunun fortepiano sinfində təhsil almışdır. 1937-ci ildə Azərbaycan Kommunist Gənclər İttifaqının Mərkəzi Komitəsinin texniki katibi, 1941-1942-ci illərdə ATİ-nin Komsomol Komitəsinin katibi işləmişdir. 1942-ci ildə Bakı şəhər Kommunist Gənclər İttifaqının katibi, sonra isə Azərbaycan Kommunist Partiyasının Bakı komitəsinin instruktoru seçilmişdir. 1944-cü ildən ATİ-nin fakültə cərrahiyyəsi kafedrasında ordinator, 1946-cı ildən assistent, 1966-cı ildən professor, 1971-1980-ci illərdə isə kafedra müdiri vəzifələrində çalışmışdır.

1955-ci ildə "Obliterasiyaedici endarterit zamanı yerli arteriyadaxili şok hemoterapiyası" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

1960-cı ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun Elmi Şurasının qərarı ilə doktorluq dissertasiyası üzərində işləmək üçün SSRİ TEA-nın A.V.Vişnevski adına Cərrahiyyə İnstitutuna ezam olunmuş və 1965-ci ildə "Qarın arteriyası və onun şaxələrinin zondlanması və selektiv angioqrafiyası (anatomik, eksperimental tədqiqatlar və klinik müşahidələr)" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1959-cu ildə "Səhiyyə əlaçısı" döş nişanı, dəfələrlə Azərbaycan SSR Səhiyyə Nazirliyinin və Respublika tibb işçilərinin Həmkarlar ittifaqının Fəxri təltiflərinə layiq görülmüşdür. Müharibə veteranı idi. "Qafqazın müdafiəsi uğrunda", "Əmək igidliyinə görə" medalları ilə təltif olunmuşdur. 1963-cü ildə "Eksperimental Cərrahiyyə və anesteziologiya" (Moskva) jurnalının redaksiya heyətinin üzvü seçilmişdir. Dəfələrlə Moskvada, Kiyevdə, Leninqradda elmi ezamiyyətlərdə olmuşdur. Daim ictimai işlərdə çalışmış, pediatriya fakültəsinin Partiya bürosunun üzvü olmuş, TEC-in cərrahiyyə bölməsinə rəhbərlik etmişdir.

1966-cı ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə "Azərbaycan SSR-in Əməkdar həkimi" adına layiq görülmüşdür.

104 elmi işin, 1 monoqrafiyanın, 10 səmərələşdirici təklifin müəllifi olmuşdur. 2 elmlər doktoru, 4 elmlər namizədi hazırlamışdır. Dəfələrlə Moskva, Kiyev, Tbilisi, İrəvan, Orta Asiya respblikalarında cərrahiyyə qurultaylarında, eləcə də Çexoslovakiyada keçirilən Ümumdünya rentgenoloqlar qurultayında məruzə ilə çıxış etmişdir.

Azərbaycanda ilk ümumi cərrah, tibb elmləri doktoru, professor, Şərqdə cərrahiyyə üzrə ilk qadın kafedra müdiri olmuşdur.

Professor X.Quliyeva Azərbaycan Tibb Universitetində ordinator vəzifəsindən başlayaraq assistent, dosent, professor və kafedra müdiri vəzifəsinə qədər yüksələrək, həyatının 60 ildən çox hissəsini Azərbaycan tibb təhsilinə, Azərbaycan təbabətinə həsr etmişdir.

Xurşud xanımın xatirəsi onu tanıyanların, qohum və əzizlərinin xatirində daima yaşayacaqdır.

Allah rəhmət eləsin, qəbri nurla dolsun!!

*Cərrahi xəstəliklər kafedrasının əməkdaşları*

# Acı yemək vaxtsız ölüm ehtimalını 14 faiz azaldır

Hazır yeməklərə acı ədviyyatın qatılması ürək-damar sistemi xəstəliklərinin inkişaf riskini azaldır. AZƏRTAC "mednews.info" saytına istinadla xəbər verir ki, Harvard Universitetinin alimləri 7 il ərzində Çinin 500 min sakinini müşahidə edərək bu qənaətə gəliblər.



Əldə olunan informasiyaya görə, acı yemək vaxtsız ölüm ehtimalını 14 faiz azaldır.

Amerikalı alimlərin fikrincə, ədviyyat onkologiya riskini azaldır, arıqlamağa kömək edir. Ümumiyyətlə, ədviyyat bir çox xəstəliklərin müalicəsində faydalıdır. Məsələn, diyetoloqlar ürək-damar xəstəliklərindən və şəkərli diabetdən əziyyət çəkənlərin yeməyinə karri əlavə etməyi məsləhət görürlər. Kayen bibəri həzm sistemi problemlərinə kömək edir.

Başqa bir tədqiqat sübuta yetirib ki, çili bibəri miqreni sakitləşdirir. Bu ədva qanın baş beyinə axmasına kömək edir və sinir uclarını fəallaşdırır.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

**Kurs müdiri:**

- Mülki müdafiənin tibb xidməti kursu (MMTX)

**Kafedraların professorları:**

- Kliniki farmakologiya kafedrası - 1 yer (0,5 vahid)
- Urologiya kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların dosentləri:**

- II daxili xəstəliklər kafedrası - 2 yer
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların baş müəllimləri:**

- Bioloji kimya kafedrası - 1 yer
- Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrası - 1 yer
- Xarici dillər kafedrası - 1 yer

**Kafedraların assistentləri:**

- IV daxili xəstəliklər kafedrası - 1 yer (0,75 vahid)
- I mamalıq və ginekologiya kafedrası - 3 yer (0,5 vahid)
- I mamalıq və ginekologiya kafedrası - 1 yer
- II mamalıq və ginekologiya kafedrası - 1 yer
- II cərrahi xəstəliklər kafedrası - 1 yer
- II cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- Yoluxucu xəstəliklər kafedrası - 1 yer
- Ftiziatriya kafedrası - 1 yer (0,5 vahid)
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer (0,75 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer (0,5 vahid)
- Uşaq stomatologiyası kafedrası - 1 yer (0,5 vahid)
- Uşaq stomatologiyası kafedrası - 1 yer (0,25 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- Qulaq, burun, boğaz xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Əczaçılığın texnologiyası və idarəçiliyi kafedrası - 1 yer (0,5 vahid)
- Farmakologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ümumi və toksikoloji kimya kafedrası - 1 yer
- III daxili xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə («Təbib» qəzeti, 15 noyabr 2016-cı il) dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**Bakı şəhəri- Az 1007, Ənvər Qasımzadə, 14:**
**Telefon: (012) 597-43-23**

### Düzəliş

Qəzetimizin 30 sentyabr 2016-cı il tarixli № 16 (1634) sayının sonuncu səhifəsində dərc olunan **"Kafedralar üzrə aşağıdakı yerləri tutmaq üçün müsabiqə elan"**ının **"Kafedraların professorları"** bölümündəki 3-cü abzas-*İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası -1 yer* aşağıdakı kimi oxunmalıdır:- *İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası -1 yer (0,25 vahid )*

**"Kafedraların dosentləri"** bölümündəki 22-ci abzas -*İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası -1 yer (0,5 vahid)* aşağıdakı kimi oxunmalıdır:- *İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrası -1 yer*

Qəzetimizin 15 oktyabr 2016-cı il tarixli № 17 (1635) sayının sonuncu səhifəsində dərc olunan **"Kafedralar üzrə aşağıdakı yerləri tutmaq üçün müsabiqə elan"**ının **"Kafedraların professorları"** bölümündəki 1-ci abzas -*Uşaq yoluxucu xəstəlikləri kafedrası – 1 yer* aşağıdakı kimi oxunmalıdır: -*Yoluxucu xəstəliklər kafedrası – 1 yer*

### Tədbirdə iştirak üçün xarici ölkəyə ezamiyyətə gedən əməkdaşlarımızın nəzərinə!

**Hörmətli həmkarlar!**

Xarici ölkələrdə keçirilən konfranslara, konqreslərə, təlimlərə gedərkən ezamiyyət üçün ərizələrinizi 2 həftə öncədən elmi hissəyə verməyiniz xahiş olunur. Əks təqdirdə ərizələrinizə baxılmayacaq.

# ATU-nun Tələbə Gənclər Təşkilatının sədri Fəxri Fərmanla təltif edilib

**Bakıda "Gənclik və dövlət müstəqilliyi: gələcəyə baxış" mövzusunda gənclərin respublika konfransı keçirilib.**

Gənclər və İdman Nazirliyinin təşkil etdiyi konfrans Dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunub. Tədbirdə Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov, gənclər və idman naziri Azad Rəhimov, Milli Məclisin gənclər və idman komitəsinin sədri Fuad Muradov, deputatlar, dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirib ki, ölkənin 25 ildə əldə etdiyi uğurlardan biri də vətənpərvər gənclərin yetişməsidir. Gənclər və idman naziri Azad Rəhimov gənclər və idman sahəsində 25 ildə əldə olunan uğurlardan bəhs edib. Nazir vurğulayıb ki, ölkə əhalisinin 27 faizini gənclər təşkil edir.

Konfransda, həmçinin gənclər arasında vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik ideyalarının təbliğ edilməsi istiqamətində görülən işlər



barədə danışılıb.

Tədbirdə Azərbaycan Tibb Universiteti Tələbə Gənclər Təşkilatının sədri Tural Əzizov "Dövlət Gənclər Siyasətinin həyata keçirilməsində" göstərdiyi fəallığa görə Fəxri Fərmanla təltif edilib.

# 14 noyabr - Dünya Diabet Günüdür

**İnsanların ömürlərinin azalmasına səbəb olan bu xəstəliyə diqqətin cəlb olunması məqsədilə 1991-ci ildən DST-nin və Beynəlxalq Diabet Federasiyasının tövsiyələrinə görə, noyabrın 14-ü Dünya Diabet Günü kimi qeyd edilir. BMT-nin Baş Məclisinin 2006-cı il dekabrın 20-də qəbul etdiyi qətnaməyə əsasən Dünya Diabet Günü 2007-ci ildən başlayaraq BMT-nin rəsmi günü elan edilib. Noyabrın 14-ü Fredirik Bantinqin anadan olduğu gündür. Bu görkəmli insan Çarlz Best ilə 1922-ci ildə insulini kəşf etməklə diabetli insanların müalicəsində yeni bir eranın başlanğıcını qoyublar. Hər il Dünya Diabet Günü müxtəlif şüarlar altında qeyd edilir. Bu il isə Dünya Diabet Günü "Diabet zamanı gözlər" devizi ilə xəstəliyin fəsadlarına həsr edilib.**

Hazırda dünyada 415 milyona yaxın insan şəkərli diabetdən əziyyət çəkir. Bu xəstəliyin profilaktikası və müalicəsi vaxtında aparılma-



sa, çox ciddi fəsadlar törədə bilər. Böyük sürətlə yayılan bu xəstəlik ciddi sosial–tibbi problemlər yaradaraq ölkələrin iqtisadiyyatına, ailələrin maddi durumuna təsir edir. Dünya Səhiyyə Təşkilatının (DST) proqnozlarına görə, 2040-cı ilədək diabetdən əziyyət çəkənlərin sayı 642 milyona çata bilər.

Azərbaycanda şəkərli diabetlə mübarizə istiqamətində mühüm addımlar atılıb və bu məsələ Azərbaycan qanunvericiliyində də əksini tapıb. "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanununu tətbiq edilməsi buna bariz nümunədir. Bundan əlavə, Nazirlər Kabinetinin 2010-cu il 26 noyabr tarixli qərarı ilə "2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər Proqramı" təsdiq edilib.

Azərbaycanda isə 212 577 nəfər diabet xəstəsi rəsmi olaraq qeydiyyatdadır. Onlardan 28924-ü I tip şəkərli diabet xəstəsi, 183653-ü II tip şəkərli diabet xəstəsidir. Bu il üçün dövlət büdcəsindən şəkərli diabetlə bağlı dövlət proqramına 40,1 milyon manat vəsait ayrılıb.

# Tələbələrimizin intellektual yarışmada yeni uğuru

**Noyabrın 12-də Azərbaycan Respublikasının Konstitusiya gününə həsr olunmuş "Tarixin sirləri" universitetlərarası məntiqi intellektual komanda oyunu keçirilib. "Code Tusi" və Azərbaycan Milli Tarixi Muzeyinin təşkilatçılığı ilə baş tutan oyunda Azərbaycan Tibb Universitetinin tələbələri ən yüksək nəticə əldə edərək qalib gəliblər.**

ATU-nun komandasının üzvü İsmayıl Əliyevin sözlərinə görə, yarışmada 36 komanda qeydiyyatdan keçib. Onlardan yalnız 6 komanda seçim turuna vəsiqə qazanıb: "Belə yüksək nəticə göstərən komandalardan biri də ATU-nun tələbələri oldu. Komandalar 5 nəfərdən ibarət idi. Yarışmanın əsasını 8 sual təşkil edirdi. Suallar tarixi, məntiqi və intellektual biliklərə əsaslanırdı".

Məntiq və diqqət tələb edən yarışmada sualları ən tez və düzgün, daha doluğun cavablandıran komanda kimi ATU komandası qalib çıxıb. Tibb Universitetinin komandasının kapitanı Leyla Hüseynova, digər üzvləri Mirzeyinal Hüseynov, Ayxan Bağırov və Rəşid Qaçabəyov olublar. Qaliblər medal, diplom və Nəsrəddin Tusiyə həsr olunmuş xüsusi kitabla mükafatlandırılıblar.



Qeyd edək ki, yarışmadan öncə tələbələr üçün Milli Tarix Muzeyinə ekskursiya təşkil olunub. 10 illik təcrübəyə malik "Code Tusi" məntiqi intellektual komanda oyunudur. Oyunun əsas mahiyyəti kodlaşdırılmış açarların tapılmasıdır.

### Etibarsız sayılır

Bakı şəhəri, Yeni Günəşli qəsəbəsi, AB massivi, ev 72, mənzil 33-də yaşayan Əsədova (Əliyeva) Səriyyə Alış qızının adına verilmiş çıxarış vərəqəsi itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin V kurs, 770[b] qrup tələbəsi Əlixanlı Kamran Əlixan oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Odlar Yurdu Universitetinin humanitar və dillər fakültəsinin filologiya ixtisası üzrə II kurs, 638/1 qrup tələbəsi Babayev Yusif Aydın oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin I kurs, 802[b] qrup tələbəsi Əmircanov Ülvi Samir oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, 164[a] qrup tələbəsi Muradov Şahbaz Elşən oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

### Allah rəhmət eləsin!

ATU-nun mühasibatlıq şöbəsinin əməkdaşları və "Təbib" qəzetinin kollektivi müəhsibatlıq şöbəsinin əməkdaşı Vüqar Qasımova atası

**Ağa müəllimin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98[c]
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 3000
Sifariş: 357